Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Rusiya Federasiyası Dövlət Statistika Federal Xidməti arasında Danışıqlar Protokolunun imzalanması haqqında

2012-ci ilin 16-17 may tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri A.M.Vəliyev və Rusiya Federasiyası Dövlət Statistika Federal Xidmətinin rəhbəri A.E.Surinov arasında işçi görüş keçirilmişdir.

Danışıqların məqsədi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Rusiya Federasiyası Dövlət Statistika Federal Xidməti arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişafının müzakirəsi olmuşdur.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri A.Vəliyev öz çıxışında hər iki dövlətin statistika orqanlarının işində qarşılıqlı fəaliyyətlərin gedişini və nəticələrini ümumilikdə müsbət qiymətləndirmiş, gələcəkdə qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruri olduğunu bildirmişdir. Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Rusiya Federasiyası Dövlət Statistika Federal Xidməti arasında qarşılıqlı fəaliyyət 2001-ci ildə imzalanmış statistika sahəsində əməkdaşlıq haqqında Razılaşmaya əsasən həyata keçirilir. Son onillikdə statistik müşahidələrin təşkili, xarici ticarət statistikası, ikitərəfli ticarətə dair göstəricilərin müqayisəsi, metodoloji vəsaitlərin və statistik nəşrlərin mübadiləsinin təşkili həyata keçirilmiş və "Azərbaycan və Rusiya. 2006" adlı birgə məcmuə buraxılmışdır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sədrinin müavini R.Səlimov müstəqillik dövründə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təkmilləşdirilməsindən və Komitənin fəaliyyətinin bütün istiqamətləri üzrə əldə edilmiş uğurlardan danışmışdır.

Rusiya Federasiyası Dövlət Statistika Federal Xidmətinin rəhbəri A.E.Surinov Rusiya Federasiyası Dövlət Statistika Federal Xidmətinin fəaliyyəti barədə geniş məlumat vermişdir. O ikitərəfli əlaqələrin inkişafından məmnun olduğunu bildirmiş

və qeyd etmişdir ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Rusiya Federasiyası Dövlət Statistika Federal Xidməti arasında əməkdaşlığın genişləndirilməsində maraqlar qarşılıqlı xarakter daşıyır.

Danışıqlar zamanı tərəflər statistik nəşrlərin dərc olunması, statistik metodologiyanın və məlumatların mübadiləsi istiqamətində birgə qarşılıqlı fəaliyyətin gücləndirilməsi niyyətində olduqlarını bildirmişlər. Tərəflərin fikrincə, əməkdaşlığı statistika fəaliyyətinin təşkili sahəsində əsas yanaşmaların unifikasiyasına və metodoloji prinsiplərin uyğunlaşdırılmasına yönəltmək lazımdır ki, bu da gələcəkdə Rusiya ilə Azərbaycan arasında hökumətlərarası əməkdaşlığa informasiya dəstəyi üçün geniş imkan yaradacaqdır.

Tədbirdə qarşılıqlı maraqlar rəhbər tutularaq tərəflər arasında əməkdaşlığın istiqamətləri müəyyən edilmişdir.

Sonda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri A.M.Vəliyev və Rusiya Federasiyası Dövlət Statistika Federal Xidmətinin rəhbəri A.E.Surinov arasında Danışıqlar Protokolu imzalanmışdır.

İkitərəfli əlaqələrin inkişafını və əməkdaşlığın yeni prioritetlərini nəzərə alaraq, tərəflər statistika sahəsində əməkdaşlıq barədə yenilənmiş Razılaşmaların imzalanmasına çalışacaqlar.